**A z ə r b a y c a n  R e s p u b l i k a s ı**
**Bakı Şəhər Binəqədi Rayon İcra Hakimiyyəti Başçısının**
**S Ə R Ə N C A M I**

**№ 185**  **« 24 » 09 2019-cu il**

**Binəqədi rayonu ərazisində seçicilərlə seçkiqabağı təşviqatın aparılması məqsədilə yerlərin ayrılması haqqında**

Binəqədi rayonu ərazisində seçicilərlə seçkiqabağı təşviqatın aparılmasına şərait yaratmaq məqsədilə "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 9-cu maddəsinə, Azərbaycan Respublikasının Seçki Məcəlləsinin 86-cı maddəsinə və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.1.5-ci, 4.15.3-cü və 6.8-ci maddələrinə əsaslanaraq

**qərara alıram:**

**1.** Azərbaycan Respublikasında Bələdiyyə seçkiləri zamanı Binəqədi rayonu ərazisində seçicilərlə kütləvi tədbirlər yolu ilə seçkiqabağı təşviqatın aparılması məqsədi ilə müəyyən edilmiş qapalı və açıq yerlərin dislokasiyası təsdiq edilsin (dislokasiya əlavə olunur).

**2.** Rayon İcra Hakimiyyəti başçısının qəsəbə və sahə inzibati ərazi dairələri üzrə nümayəndələrinə tapşırılsın ki, qeydə alınmış namizədə, siyasi partiyaya, siyasi partiyalar blokuna vətəndaşlarla görüşlər, açıq müzakirələr təşkil edilməsində və keçirilməsində müvafiq köməklik göstərsinlər.

**3.** "Sərbəst toplaşmaq azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun 14-cü və Azərbaycan Respublikası Seçki Məcəlləsinin 86.7-ci maddəsinin tələblərindən irəli gələn məsələlərin həll edilməsi Binəqədi Rayon Polis İdarəsinə həvalə edilsin.

**4.** Binəqədi Rayon İcra Hakimiyyəti başçısı Aparatının Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinə (S.Əliyevə) tapşırılsın ki, Sərəncamın surətlərinin Binəqədi Rayon Polis İdarəsinə və digər aidiyyəti təşkilatlara göndərilməsini təmin etsin.

**5.** Sərəncamın icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Elxan Allahverdiyev**

**Əsli ilə düzdür.**
**Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** **Sabir Əliyev**

**№ ___**

**Binəqədi Rayon İcra Hakimiyyəti başçısının**
**"24" 09 2019-cu il tarixli, 185 №-li**
**Sərəncamı ilə təsdiq edilmişdir.**

**Binəqədi rayonu ərazisində seçicilərlə seçkiqabağı təşviqatın aparılması üçün ayrılmış yerlərin**

**D İ S L O K A S İ Y A S I**

**8 saylı Binəqədi birinci Seçki Dairəsinin ərazisi üzrə:**

**Qapalı yer:**

1. 7-ci mikrorayon, Abay Kunanbayev küçəsi, 7a saylı binanın həyəti, "Xeyir-şər" evi

**Açıq yer:**

1. S.S.Axundov küçəsi 24E, "Vətən" futbol klubunun stadionu

**9 saylı Binəqədi ikinci Seçki Dairəsinin ərazisi üzrə:**

**Qapalı yer:**

1. 9-cu mikrorayon, H.Babaşov küçəsi, 5 saylı binanın həyəti, "Xeyir-şər" evi

**Açıq yer:**

1. Rəsulzadə qəsəbəsi, M.Məhəmmədxan küçəsi, 30 saylı tam orta məktəbin stadionu

**10 saylı Binəqədi üçüncü Seçki Dairəsinin ərazisi üzrə:**

**(Biləcəri bələdiyyəsi üzrə)**

**Qapalı yer:**

1. Biləcəri qəsəbəsi, Xəqani küçəsi 14 saylı binanın həyəti, "Xeyir-şər" evi

**Açıq yer:**

2. Biləcəri qəsəbəsi, Xəqani küçəsi 14 saylı binanın həyəti

**(Binəqədi qəsəbə bələdiyyəsi üzrə)**

**Qapalı yer:**

1. Binəqədi qəsəbəsi, II mədən, korpus 83, İdman Sağlamlıq Kompleksinin zalı

**Açıq yer:**

2. Binəqədi qəsəbəsi, II mədən, korpus 83, İdman Sağlamlıq Kompleksinin stadionu

**12 saylı Qaradağ-Binəqədi-Yasamal Seçki Dairəsinin ərazisi üzrə:**

**Qapalı yer:**

1. Xocəsən qəsəbəsi, Xocalı küçəsi, döngə 7 (Ruslan Allahverdiyev küçəsi, döngə 7), Firavan şadlıq sarayı

**Açıq yer:**

1. Xocəsən qəsəbəsi, H.Sultanov küçəsi, qəsəbə stadionu

**Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri vəzifəsi səlahiyyətlərini müvəqqəti icra edən** **Hacıbaba Babayev**